# Vergi Məcəlləsinə edilən dəyişikliklər
# Baker Tilly təqdimatında

Yanvar 2023, Bakı şəhəri



9 dekabr 2022-ci il tarixli
“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında”
Azərbaycan Respublikasının Qanunu ilə Vergi Məcəlləsinin 100-dən çox maddəsinə dəyişiklik edilmiş,
həmçinin Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində
tətbiq edilən vergitutmanın xüsusiyyətləri ilə bağlı yeni Fəsil əlavə edilmişdir.

Əsas dəyişikliklərin xülasəsini təqdim edirik.

## Mündəricat


1. Vergi inzibatçılığı ..................... 3-7
2. Bazar qiyməti, transfer qiymətqoyma və nəzarət olunan xarici müəssisə .....................8-9
3. Vergi ödəyicilərinin vəzifələri.....................10-11
4. Kommersiya sirri.....................12
5. Bank hesablarının açılması.....................13-14
6. Vergi yoxlamaları.....................15-16
7. Vergi hüquqpozuntuları və sanksiyalar .....................17-20
8. Fiziki şəxslərin gəlir vergisi ilə bağlı azadolmalar .....................21-22
9. Hüquq şəxslərin mənfəət vergisi ilə bağlı azadolmalar .....................23
10. Əlavə dəyər vergisi .....................24-30
11. Əmlak vergisi .....................31-32
12. Torpaq vergisi…………………………… .....................33
13. Sadələşdirilmiş vergi .....................34
14. İnformasiya texnologiyaları sahəsində vergi güzəştləri .....................35
15. İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətlərini tənzimləyən yeni fəsil.....................36-38
16. Digər dəyişikliklər .....................39-41

## Vergi inzibatçılığı

**Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilələrin tətbiqi ilə bağlı dəyişiklik.**

Vergi Məcəlləsinin 2.6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilə ilə bu müqavilə bağlanan dövlətin rezidentinə verilən vergi güzəştlərinə və üstünlüklərinə münasibətdə, həmin müqavilə onu bağlamış dövlətin rezidenti olmayan şəxs tərəfindən qeyd edilən güzəştlərin və üstünlüklərin alınması üçün istifadə edildiyi halda bu Məcəllənin 2.5-ci maddəsinin müddəaları tətbiq olunmurdu. Edilmiş dəyişikliyə əsasən, sözügedən vergi güzəştləri və üstünlüklərindən həmçinin ***vergidən yayınma məqsədilə istifadə edilərsə***, Vergi Məcəlləsinin 2.5-ci maddəsinin müddəaları tətbiq olunmayacaqdır.

**Vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi qaydalarında yenilik.**

Vergi Məcəlləsinin 2.8-ci maddəsinin məzmununa əsasən növbəti ilin dövlət büdcəsi layihəsi çərçivəsində vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi zərurəti yarandıqda həmin qanun layihələri və layihələrdə nəzərdə tutulan vergi azadolmalarının və güzəştlərinin ***Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada aparılan qiymətləndirilməsinin nəticələrinə dair arayış*** Azərbaycan Respublikasının Prezidentinə cari ilin may ayının 1-dək, Azərbaycan Respublikasının Prezidenti tərəfindən isə Azərbaycan Respublikasının Milli Məclisinə cari ilin may ayının 15-dən gec olmayaraq təqdim edilir.

Maddənin əvvəlki redaksiyasından fərqli olaraq, yeni redaksiyada qiymətləndirilmələrin nəticələri arayış formasında Azərbaycan Respublikasının Milli Məclisinə təqdim ediləcəkdir.

## Vergi inzibatçılığı

**Fiziki şəxslərin ərizəsi olmadan vergi orqanı tərəfindən uçota alınma qaydaları**

Vergi Məcəlləsinin 33.5-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, ***həmin Məcəllənin 33.3-cü və 33.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, vergi orqanında uçota alınmaq üçün ərizə təqdim etməyən fiziki şəxsi vergi orqanı öz təşəbbüsü ilə vergi uçotuna alır və 5 gün müddətində ona vergi uçotuna alınması barədə bildiriş göndərir.***

Həmçinin yeni əlavə olunan 33.8-1-ci maddəyə əsasən, rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (həmin Məcəllənin 19-cu maddəsi ilə nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

**Vergi Məcəlləsinin 34.7.4-cü maddəsinin ikinci hissəsi qüvvəsini itirir.**

Maddədə qeyd olunur ki, vergi ödəyicisi uçotdan çıxarıldıqda, onun uçota alınmasını təsdiq edən şəhadətnamə vergi orqanına təhvil verilir. Əvvəlki redaksiyada vergi orqanının şəhadətnamə-dublikatın etibarsız hesab olunması barədə bank idarələrinə məlumat verməsi öhdəliyi müəyyən edilmiş, şəhadətnamə-dublikatla bağlı qanunvericiliyə edilmiş dəyişikliklərdən irəli gələrək bu hissə 34.7.4-cü maddəsinin məzmunundan çıxarılmışdır.

© Baker Tilly

## Vergi inzibatçılığı

**Vergilər üzrə borcların alınması qaydasını əks etdirən 65-ci maddənin məzmununa əlavələr edildi.**

Belə ki, Vergi Məcəlləsinin 65-ci maddəsinə yeni bənd əlavə olunmuşdur. Əlavə olunan 65.8-1-ci maddədə qeyd olunur ki, Vergi Məcəlləsinin 65.2-ci maddəsinə uyğun olaraq vergi ödəyicisinin milli və ya xarici valyutada cari və ya digər hesablarında borc məbləğinin 105 faizi həcmində pul vəsaitinin məxaric əməliyyatları üzrə dondurulması haqqında sərəncam olduqda, vergi ödəyicisi dondurulmuş pul vəsaitinin dövlət büdcəsinə köçürülməsi ilə bağlı kredit təşkilatları və ya bank əməliyyatları aparan şəxslərə ödəniş tapşırığı təqdim edə bilər və həmin şəxslər vergi ödəyicisinin ödəniş tapşırığında göstərilən məbləğdə pul vəsaitinin dövlət büdcəsinə köçürülməsini təmin edir.

Bununla yanaşı, 65-ci maddəyə əlavə olunmuş 10-cu bəndə əsasən, vergi orqanları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinin yerinə yetirilməsi məqsədilə xarici dövlətlərin vergi orqanlarının müraciətinə əsasən həmin xarici dövlətdə yaranmış vergi borcunun alınması ilə bağlı bu Məcəllənin 65.1 - 65.9-cu maddələrində nəzərdə tutulmuş tədbirləri həyata keçirirlər.

Müvafiq əlavədən sonra artıq vergi orqanları xarici dövlətdə yaranmış vergi borcunun alınması ilə bağlı xarici dövlətlərin vergi orqanlarının müraciətinə əsasən, vergilər üzrə borcların alınması tədbirlərini həyata keçirirlər.

## Vergi inzibatçılığı

**Vergi Məcəlləsinin banklar və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən kredit təşkilatları tərəfindən məlumatların verilməsinə dair dəyişiklik.**

Müvafiq dəyişiklikdən sonra vergi orqanları vergi nəzarəti zamanı və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində digər dövlətin səlahiyyətli orqanları ilə məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə kredit təşkilatlarına və ya bank əməliyyatları aparan şəxslərə yazılı bildiriş göndərməklə, həmin bankın və ya kredit təşkilatının xidmət etdiyi vergi ödəyicisinin (şəxsin) ***eyniləşdirmə məlumatını, onun bank hesabları və əməliyyatları barədə məlumat, həmçinin bu məlumatı təsdiq edən sənədləri*** almaq hüququna malikdir. Əvvəlki redaksiyada vergi orqanlarının vergi ödəyicilərinin yalnız bank hesabları və əməliyyatları barədə məlumat almaq hüququ var idi. Sonuncu dəyişiklikdən sonra bu hüquq yalnız məlumat almaqla məhdudlaşmır, eyni zamanda bu məlumatları təsdiq edən sənədlərə də şamil olunmuşdur.

Bununla yanaşı, Vergi Məcəlləsinin 76.1-1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, Vergi Məcəlləsinin 76.1-ci maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisinin vergi öhdəliklərinin müəyyən edilməsi məqsədilə vergi ödəyicilərinin ***sahibkarlıq fəaliyyəti məqsədləri üçün*** açılmış hesabları üzrə aparılmış əməliyyatlar barədə aylıq məlumatlar bank əməliyyatları aparan şəxslər tərəfindən elektron qaydada hər ay bitdikdən sonra növbəti ayın 10-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş formada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilir.

Vergi Məcəlləsinin 76.2-ci maddəsinə yeni hissə əlavə edilmişdir. Əlavə edilmiş hissədə qeyd olunur ki, ***76-cı maddənin digər müddəalarından asılı olmayaraq, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərindən irəli gəldiyi halda xarici dövlətin səlahiyyətli orqanından daxil olan müraciətdə (sorğuda) hesab sahibinə müvafiq məlumatın verilməməsi qeyd edildiyi təqdirdə, hesab sahibinə rəsmi məlumat göndərilmir.*** Qeyd etmək lazımdır ki, 76-cı maddənin tələblərinə əsasən, vergi orqanı kredit təşkilatı və ya bank əməliyyatları aparan şəxsdən vergi ödəyicisinin hesabları üzrə aparılmış əməliyyatlar barədə məlumat tələb etdikdə, bu barədə 5 iş günü müddətində hesab sahibinə rəsmi məlumat göndərməlidir (verməlidir). Lakin 76.2-ci maddəyə edilən yeni əlavədən sonra müvafiq məlumatlar xarici dövlətin səlahiyyətli orqanından daxil olduqda və müraciətdə (sorğuda) hesab sahibinə müvafiq məlumatın verilməməsi qeyd edildikdə hesab sahibinə məlumat verilməyəcəkdir.

## Vergi inzibatçılığı

**Vergi Məcəlləsinin maliyyə institutları tərəfindən məlumatların verilməsinə dair 76-1-ci maddəsi yeni redaksiyada verilmişdir.**

Vergi Məcəlləsinin yeni redaksiyada verilmiş 76-1-ci maddəsinə əsasən, maliyyə institutları ***qeyri-rezidentlərin*** Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hədlərdə və qaydada ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə*** təqdim etməlidirlər.

**İflas prosesində olan bankların vergi öhdəliklərinin icrası**

Vergi Məcəlləsinin 79.3-cü maddəsinin məzmununa edilmiş əlavəyə əsasən, ***iflas prosesində olan bankların vergi öhdəliklərinin icrası növbəliliyi "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş ödənişlərin növbəliliyi ardıcıllığına uyğun olaraq yerinə yetiriləcəkdir.***

# Bazar qiymәti, transfer qiymәtqoyma vә nәzarәt olunan xarici müәssisә

**Bazar qiymәti nәzәrә alınmaqla vergilәrin hesablanacağı halların sayı artırıldı.**

Vergi Mәcәllәsinin 14.3-cü maddәsinә artırılmış 14.3.6-cı bәndә әsasәn, vergi ödәyicisi tәrәfindәn vergi nәzarәti tәdbiri zamanı malların (işlәrin, xidmәtlәrin) tәqdim edilmәsinә (alınmasına) dair sәnәdlәr tәqdim edilmәdikdә (mövcud olmadıqda) vergilәrin hesablanması bazar qiymәti nәzәrә alınmaqla aparılacaqdır.

**Transfer qiymәti ilә bağlı yeni dәyişikliklәr**

Mәnfәәtin bölgüsü üsuluna anlayış verilmişdir. Vergi Mәcәllәsinin 14-1.1.4-cü maddәsinin ikinci cümlәsinә edilmiş dәyişikliyә әsasәn, ***mәnfәәtin bölgüsü üsulu bu Mәcәllәnin 14-1.2-ci maddәsindә göstәrilәn şәxslәr arasında әmәliyyatlar aparıldığı zaman tәrәflәrdәn hәr birinin hәmin әmәliyyatlardan әldә etdiyi mәnfәәtin hәmin şәxslәr arasında bu maddәyә әsasәn bölüşdürülmәsidir.***

Yeni әlavә edilәn 14-1.10-cu maddәyә әsasәn, qeyri-rezident şәxslәrin Azәrbaycan mәnbәyindәn әldә etdiyi gәlirlәr üzrә mәnfәәtin (gәlirin) müәyyәn edilmәsi vә hәmin qeyri-rezidentin Azәrbaycan Respublikasındakı daimi nümayәndәliyinә münasibәtdә vergilәrin hesablanması bu maddәyә әsasәn müәyyәnlәşdirilir.

## Bazar qiyməti, transfer qiymətqoyma və nəzarət olunan xarici müəssisə

**Nəzarət olunan xarici müəssisə və onun vergiyə cəlb edilməsi ilə bağlı 14-2-ci maddənin məzmununa dəyişikliklər edildi.**

Məcəllənin 14-2.1-ci maddəsinin əvvəlki redaksiyasına əsasən, vergitutma məqsədləri üçün Azərbaycan Respublikasının rezidenti hesab olunmayan, güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən müəssisənin mənfəəti maddədə müəyyən edilmiş hallarda Azərbaycan Respublikasında vergiyə cəlb olunurdu. Edilmiş dəyişikliyə əsasən, "güzəştli vergi tutulan ölkələrdə (ərazilərdə) qeydiyyatdan keçən" ifadəsi maddənin məzmunundan çıxarılmış və beləliklə, Azərbaycan Respublikasında vergiyə cəlb olunacaq qeyri-rezident şəxslərin dairəsi genişləndirilmişdir.

Qeyd edilən maddədə nəzərdə tutulan hallar dəqiqləşdirilmişdir:

- 14-2.1.1. Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxs özü və ya qarşılıqlı surətdə asılı olduğu rezident və ya qeyri-rezident şəxslə birlikdə birbaşa və ya dolayısilə xarici müəssisədə 50 faizdən çox səsvermə hüququna və ya onun nizamnamə kapitalının 50 faizindən çoxuna və ya həmin xarici müəssisənin mənfəətinin 50 faizindən çox hissəsini əldə etmək hüququna sahibdirsə və
- 14-2.1.2. nəzarət olunan xarici müəssisənin mənfəətindən faktiki ödənilən vergi, bu Məcəlləyə uyğun olaraq həmin mənfəətdən ödənilməli mənfəət vergisinin ***75 faizinə və ya daha aşağı hissəsinə bərabər olarsa və***
- 14-2.1.3-cü maddədə göstərilən şərtlərə uyğun gəldiyi halda mümkün olacaqdır.

Eyni zamanda, 14-2.2-ci maddəsinin məzmununa edilmiş əlavəyə əsasən, ***nəzarət olunan xarici müəssisənin mənfəətinin Azərbaycan Respublikasının rezidenti hesab edilən şəxsin vergi tutulan gəlirlərinə daxil edilməsi qaydası, habelə nəzarət*** olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilir.

© Baker Tilly 

## Vergi ödəyicilərinin vəzifələri

**Vergi ödəyicilərinin vəzifələrində bir sıra dəyişikliklər edildi.**

Vergi ödəyicilərinin vəzifələrinin siyahısı genişlənmişdir. Əsas dəyişikliklər aşağıdakılardır:

- 16.1.8-ci maddəyə edilmiş dəyişikliyə əsasən, ***özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər*** onlar tərəfindən göstərilən xidmətlər üzrə pul hesablaşmalarını Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən meyarlara cavab verən və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsi ilə həyata keçirməlidirlər;
- 16.1.11-11-ci maddənin məzmununda edilmiş dəyişikliyə əsasən, neft-qaz sahəsində fəaliyyəti olan və ya dövlət sektoruna aid edilən, habelə ***"Yaşıl dəhliz" buraxılış sistemindən istifadə edən vergi ödəyicələri istisna olmaqla***, digər vergi ödəyicilərinin onlar tərəfindən idxal ediləcək mallar barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən formada ***mülkiyyət, icarə və ya digər əşya hüquqları əsasında istifadə edilən və (və ya) vergi orqanlarında təsərrüfat subyekti (obyekti) kimi uçota alınmış malların saxlanılacağı (boşaldılacağı) yer barədə və*** 16.1.11-11-ci maddədə sadalanmış digər məlumatları malların gömrük nəzarətindən çıxdığı vaxtadək (hava nəqliyyatı ilə daşınan malların gömrük nəzarətindən çıxdığı vaxtdan 1 iş günü müddətində) uçotda olduğu vergi orqanına vermək vəzifəsi müəyyən edilmişdir;
- 16.1.11-11.3-cü maddəyə edilmiş dəyişikliyə əsasən, vergi ödəyicisinin vergi orqanında uçota alınmış bir təsərrüfat subyekti (obyekti) olduğu halda bu maddədə nəzərdə tutulan məlumat forması vergi orqanına təqdim edilməyəcəkdir. Bu halda idxal edilmiş mallar həmin təsərrüfat subyektinə (obyektinə) boşaldılmış hesab olunacaqdır;

## Vergi ödəyicilərinin vəzifələri

- 16.1.11-4-cü maddənin məzmununa edilmiş əlavəyə əsasən, vergi ödəyicilərinin maliyyə institutları tərəfindən hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə, Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini və bu Məcəllənin 76-1-ci maddəsinə uyğun olaraq maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan məlumatların əks olunduğu forması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən elektron hesabatların ***və vergi orqanının tələbi əsasında dəqiqləşdirilmiş elektron hesabatların təqdim edilməsini*** təmin etmək vəzifəsi müəyyən edilmişdir;
- yeni əlavə olunan 16.1.11-6.5-ci maddəyə əsasən, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına vəkillər və vəkil qurumları tərəfindən edilən ödənişlər üzrə Kollegiyanın elektron qaimə-faktura göndərmək öhdəliyi istisna edilir.

Əlavə olaraq 16.6-cı maddənin məzmununda edilmiş dəyişikliyə əsasən, sığortaçılar tərəfindən hüquqi şəxslərə, onların filial və nümayəndəliklərinə ***və fərdi sahibkarlara*** məxsus sığortalanmış əsas vəsaitlər barədə məlumat rüb bitdikdən sonra növbəti ayın 20-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilir. Qeyd edək ki, bu maddənin əvvəlki redaksiyası təkrarsığortaçılara və təkrarsığortalanmışlara da tətbiq edilirdi.

16.7-ci maddəyə əsasən, kart təşkilatları tərəfindən bu Məcəllənin 165.5-ci və ***228-ci maddələrinə*** uyğun olaraq nağdsız qaydada aparılmış ödənişlər barədə məlumat ay bitdikdən sonra növbəti ayın 20-dək Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim edilir.

## Kommersiya sirri

**Kommersiya və (və ya) vergi sirri hesab edilən məlumatlarla bağlı dəyişikliklər**

Məcəllənin 30.2-ci maddəsinə edilmiş əlavəyə əsasən ***təsərrüfat subyektinin (obyektinin) uçot kodu*** haqqında məlumatlar, habelə vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə borclar haqqında məlumatlar kommersiya və (və ya) vergi sirri hesab edilməyəcəkdir.

- yeni əlavə edilmiş 30.6.15-ci maddəyə əsasən, səlahiyyətlərinin icrası ilə əlaqədar Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin sorğusu əsasında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə vergi orqanları və onların vəzifəli şəxsləri vergi ödəyiciləri haqqında məlumatı verə bilərlər.
- yeni əlavə edilmiş 30.6-1-ci maddəyə əsasən, vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisinin vergi uçotundan çıxarılıb-çıxarılmaması, vergi ödəyicisinin fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə), vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) yerləşdiyi ünvan haqqında məlumat səlahiyyətlərinin icrası ilə əlaqədar dövlət orqanlarına (qurumlarına) verilə bilər.
- yeni əlavə edilmiş 30.6-2-ci maddəyə əsasən, vergi orqanları və onların vəzifəli şəxsləri tərəfindən vergi ödəyicisinin fəaliyyət növlərinin adı və kodu (əsas və əlavə) haqqında məlumat hesabların açılması məqsədilə bank əməliyyatı aparan şəxslərə verilə bilər.

© Baker Tilly

## Bank hesablarının açılması

**Bank hesablarının açılması qaydaları dəyişdirildi.**

Dəyişikliyin mahiyyəti əsas etibarilə şəhadətnamə-duplikatın təqdim edilməsinin aradan qaldırılması, daha çevik şəkildə elektron qaydada banklar tərəfindən vergi orqanının hesab açılması barədə məlumatlandırılmasından ibarətdir. Bu dəyişiklik 1 oktyabr 2023-cü il tarixindən qüvvəyə minir.

Maddənin yeni mətni aşağıda təqdim edilir:

35.1. Vergi ödəyiciləri vergi uçotuna alındıqdan sonra hesab açmaq üçün bank hesablarını açmaq və aparmaq hüququ olan kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna (bundan sonra - bank əməliyyatları aparan şəxslərə) müraciət etdikdə bank əməliyyatları aparan şəxslər vergi ödəyicilərinə hesablar açır (qanunla hesabın açılmasından imtinaya əsas verən hallar nəzərə alınmaqla) və açılmış hesabların (qeyri-rezident üçün sahibkarlıq fəaliyyəti ilə bağlı olmayan açılmış hesablar istisna olmaqla) vergi orqanında qeydiyyata alınması üçün forması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən məlumatı hesab açıldığı tarixdən 1 iş günü müddətində elektron qaydada vergi orqanına göndərir.

35.2. Açılmış hesab daxil olmuş məlumat əsasında vergi orqanı tərəfindən real vaxt rejimində avtomatlaşdırılmış qaydada qeydiyyata alınır və bu barədə bank əməliyyatları aparan şəxslərə qeydiyyat bildirişi göndərilir. Qeydiyyat bildirişi daxil olanadək bank əməliyyatı aparan şəxslər tərəfindən hesab üzrə məxaric əməliyyatlarının aparılması qadağandır.

35.3. Adına hesab açılmış vergi ödəyicisinin dövlət büdcəsinə və büdcədənkənar fondlara vergilər, məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, faizlər və maliyyə sanksiyaları üzrə borcu olduğu və bu Məcəllənin 65.1-ci maddəsi ilə müəyyən edilən müddət bitdiyi halda vergi orqanı tərəfindən hesabın qeydiyyata alınmasına dair bildirişlə yanaşı eyni gündə həmin hesab üzrə bu Məcəllənin 65-ci maddəsinə uyğun olaraq sərəncam da göndərilir və bildirişdə bu barədə qeyd edilir.

## Bank hesablarının açılması

35.4. Hesab üzrə vergi orqanının sərəncamının göndəriləcəyi barədə qeyd olan hesab üzrə bank əməliyyatı aparan şəxslər tərəfindən həmin hesab üzrə vergi orqanının sərəncamı daxil olanadək sərəncamda göstərilən məbləğin 105 faizi həcmində məxaric əməliyyatlarının aparılması məhdudlaşdırılır. Bank əməliyyatlarını aparan şəxslər tərəfindən vergi orqanının sərəncamı daxil olanadək hesabdan məxarici məhdudlaşdırılan vəsaitdən artıq olan pul vəsaiti olduğu halda həmin artıq pul vəsaitinin hesabdan məxaric edilməsini nəzərdə tutan vergi ödəyicisinin ödəmə tapşırıqları icra edilir. Həmin hesaba vergi orqanının sərəncamı daxil olduqdan sonra hesab üzrə əməliyyatlar qanunla nəzərdə tutulmuş qaydalara və növbəliliyə riayət edilməklə icra edilir.

35.5. Vergi ödəyicilərinə məxsus hesabların bank əməliyyatı aparan şəxslərin özü, filial və ya struktur bölmələri arasında köçürülməsi zamanı bank əməliyyatı aparan şəxslər köçürülən hesablar barədə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş formada məlumatı hesabın köçürüldüyü tarixdən 1 iş günü müddətində elektron qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərir.

35.6. Vergi ödəyicilərinə məxsus hesablar bank əməliyyatı aparan şəxslər tərəfindən bağlandıqda həmin şəxslər bu barədə məlumatı hesabın bağlandığı tarixdən 1 iş günü müddətində elektron qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə göndərir.

35.7. Bank əməliyyatlarını aparan şəxslər hüquqi və fiziki şəxslərə hesab açdıqda və ya maliyyə xidmətləri göstərdikdə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin tələblərinə əməl edilməsini təmin edirlər.

© Baker Tilly

Vergi yoxlamaları

**Vergi yoxlamaları**

**Kameral vergi yoxlamasının müddəti ilə bağlı dəyişiklik edildi.**

Məcəllənin 37.2-ci maddəsinə əsasən, xaricdən əldə olunan gəlirlər üzrə xarici dövlətlərin səlahiyyətli orqanlarından müvafiq məlumatlar daxil olduğu halda kameral vergi yoxlaması həmin Məcəllənin 85.4-cü maddəsində göstərilən dövr üzrə məlumatlar daxil olduğu tarixdən **90** iş günü müddətində keçiriləcəkdir. Qeyd edək ki, əvvəlki redaksiyada bu müddət 30 iş günü təşkil edirdi.

**Səyyar vergi yoxlaması ilə bağlı əlavə müddəalar təsbit olundu.**

Yeni əlavə edilən:

- ❖ 38.7.4-1-ci maddəyə əsasən, vergi ödəyicisində aparılan səyyar vergi yoxlaması ilə əlaqədar olaraq müvafiq məlumatın və ya sənədlərin əldə edilməsi məqsədilə, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr çərçivəsində vergi orqanının nümayəndəsinin xarici dövlətin ərazisində vergi yoxlamasında iştirak etməsilə bağlı xarici ölkənin səlahiyyətli orqanına müraciət edildikdə səyyar vergi yoxlaması xarici dövlətdə aparılan yoxlama yekunlaşanadək dayandırılacaqdır;
- ❖ 38.9-cu maddəyə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda xarici dövlətlərin (ərazilərin) səlahiyyətli orqanının nümayəndəsi Azərbaycanda və ya Azərbaycan Respublikasının vergi orqanının səlahiyyətli nümayəndəsi həmin xarici dövlətdə (ərazidə) fəaliyyət göstərən vergi ödəyicisində keçirilən səyyar vergi yoxlamalarında iştirak edə bilər;
- ❖ 38.10-cu maddəyə əsasən, xarici dövlətin (ərazinin) səlahiyyətli orqanının nümayəndələrinin Azərbaycan Respublikasının ərazisində səyyar vergi yoxlamasında iştirakının təşkili qaydası Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilir.

© Baker Tilly

Vergi yoxlamaları

**Nəzarət-kassa aparatının çeklərində əks olunan məlumatların dairəsi genişləndirildi.**

Belə ki, nəzarət-kassa aparatının çeklərində əks olunan məlumatlarla bağlı Vergi Məcəlləsinin 50.8-ci maddəsinə üç yeni bənd əlavə olunmuşdur. Artıq 50.8.17-ci maddəyə əsasən, nisyə satış üzrə ödəniş çekində nisyə satış üzrə ödəniləcək məbləğin və ödəniş üzrə ardıcıllığın nömrəsi, habelə satış (nisyə) çeki üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator), 50.8.18-ci maddəyə əsasən, yanacaq doldurma məntəqələri tərəfindən vergi ödəyicilərinə yanacaq kartı (talon) əsasında təqdim edilən yanacağa görə satış çekində alıcının nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanı, eləcə də 50.8.10-1-ci maddəyə əsasən, avans (beh) ödənişi çekində avans (beh) üzrə ödənilmiş məbləğ nəzarət-kassa aparatının çeklərində əks olunacaqdır.

Bununla yanaşı, artıq Vergi Məcəlləsinin 50.8.5-ci maddəsinə əsasən, nəzarət-kassa aparatının çeklərində sadələşdirilmiş verginin məbləği ilə bərabər onun dərəcəsi də öz əksini tapmalıdır.

Həmçinin Vergi Məcəlləsinin 50-ci maddəsinə əsasən, artıq nəzarət-kassa aparatının çeklərində gün ərzində vurulmuş çeklərin sayı deyil, cari növbə ərzində vurulmuş çeklərin sayı və çekin nömrəsi, müştəriyə qaytarılan məbləğ (malın və ya xidmətin (işin) dəyərindən artıq ödənilən hissə üzrə), ödənişin forması və üsulu (nağd, nağdsız, bonus, hədiyyə kartı), çekin növü (satış, geri qaytarma, ləğvetmə, avans (beh) ödənişi, nisyə satış üzrə ödəniş), geri qaytarma, ləğv etmə və satış (avans üzrə) çeklərində həmin çeklərlə bağlı olan müvafiq çeklər üzrə fiskal əlamətlərdə təsvir olunan simvollar (unikal identifikator) əks olunacaqdır.

Vergi hüquqpozuntuları və sanksiyalar

**Vergi hüquqpozuntuları və sanksiyalar**

**Vergi qanunvericiliyi ilə bağlı hüquqpozuntusuna görə məsuliyyətə cəlb etmənin və maliyyə sanksiyalarının alınmasının müddətinə dəyişiklik olundu.**

Belə ki, dəyişiklikdən sonra bu Məcəllənin 71.4-cü maddəsi ilə müəyyən olunmuş sənədlərin saxlanılmasından ən azı 5 il müddət keçmişdirsə, şəxs həmin hüquq pozuntusunun törədilməsinə görə məsuliyyətə cəlb edilə bilməz və vergi öhdəlikləri yarana bilməz. Bu sənədlərə daxildir: mühasibat uçotu sənədləri, o cümlədən elektron və (və ya) kağız formatda məlumatlar.

**Hesabat təqdim edən vergi ödəyicilərinin dairəsi genişləndirildi və transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisələrə tətbiq olunan maliyyə sanksiyasının məbləği artırıldı.**

Vergi Məcəlləsinin 57.1-ci maddəsinə əsasən, artıq vergidən azad edilən (vergiyə cəlb edilməyən) əməliyyatlar aparan, vergitutma obyektləri olan vergi ödəyiciləri də Vergi orqanına arayış deyil, hesabat təqdim etməlidirlər. Müvafiq hesabat əsas olmadan təqdim edilmədiyi halda, 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Bununla yanaşı, Vergi Məcəlləsinin 57.1-2-ci maddəsinə edilən dəyişikliyə əsasən, transmilli şirkətlər qrupunun maliyyə ilində məcmu gəliri 750 milyon avronun manat ekvivalentindən çox olduqda, transmilli şirkətlər qrupuna daxil olan və Azərbaycan Respublikasının rezidenti olan müəssisə vergi orqanına müəyyən edilmiş müddətdə, formada və qaydada hesabat təqdim etmədiyi halda maliyyə sanksiyası 500 manatdan 10,000 manata qədər artırılmışdır.

Vergi Məcəlləsinin 57.3-cü maddəsinə edilən dəyişikliyə əsasən, mühasibat uçotu sənədlərinin, o cümlədən elektron və (və ya) kağız formatda məlumatların üzrlü səbəb olmadan ***5 ildən az olmayan*** müddətdə saxlanılmamasına görə vergi ödəyicisinə 1,000 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur.

## Vergi hüquqpozuntuları və sanksiyalar

**Vergi Məcəlləsinin vergilərin azaldılmasına və digər vergi hüquqpozuntularına görə maliyyə sanksiyaları ilə bağlı dəyişikliklər**

Belə ki, artıq Vergi Məcəlləsinin 175.8-ci maddəsində göstərilən vergi ödəyicisi tərəfindən malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən 1 iş günü müddətində ƏDV məbləğinin ödənilməsi mümkündür. Dəyişiklikdən əvvəl ƏDV məbləği malların (iş və xidmətlərin) dəyəri ödənilən gün həyata keçirilməli idi, həmin gündən gec həyata keçirildikdə isə maliyyə sanksiyasının tətbiq olunması nəzərdə tutulmuşdu. Lakin son dəyişiklikdən sonra ƏDV məbləği malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən ***1 iş günü*** müddətində ödənilə bilər. Bu müddət ərzində ödənilmədikdə isə maliyyə sanksiyası nəzərdə tutulmuşdur.

Vergi Məcəlləsinin:

- 58.7-1.10-cu maddəsinə edilən dəyişikliyə əsasən, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.4.12-ci maddəsinin tələblərini pozmaqla, tibbi xidmətlərin dəyərini nağd qaydada qəbul edən tibb müəssisəsinə ***və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslərə*** maliyyə sanksiyası tətbiq ediləcəkdir. Dəyişiklikdən əvvəl bu hüquq pozuntusunun subyekti yalnız tibbi xidmətlərin dəyərini nağd qaydada qəbul edən tibb müəssisələri idisə, dəyişiklikdən sonra onların sırasına özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər də əlavə olundu.

## Vergi hüquqpozuntuları və sanksiyalar

- 58.11-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, sahibkarlıq fəaliyyəti məqsədləri üçün qeyri-rezident kredit təşkilatlarında və ya bank əməliyyatı aparan qeyri-rezident şəxslərdə açılmış hesaba (rezident banklar tərəfindən qeyri-rezident banklarda açılmış müxbir hesablar istisna olmaqla) dair forması Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilmiş məlumatın bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək vergi orqanına təqdim edilməməsinə görə həmin hesaba mədaxil edilmiş pul vəsaitinin 100 faizi miqdarında vergi ödəyicisinə maliyyə sanksiyası tətbiq edilir. Dəyişiklikdən əvvəl bank hesabının açılması üçün vergi ödəyicisi tərəfindən vergi orqanına dublikat-şəhadətnamə təqdim olunurdu. Dublikat-şəhadətnamə təqdim olunmadan açılmış bank hesablarına mədaxil edilmiş pul vəsaiti olduğu təqdirdə maliyyə sanksiyası tətbiq olunurdu. Son dəyişiklikdən sonra isə artıq açılmış bank hesabları ilə bağlı vergi orqanına bu hesablar üzrə əməliyyatlar aparıldığı tarixədək məlumatın təqdim edilməməsinə görə maliyyə sanksiyası tətbiq olunacaqdır.

- 58.13-cü maddəsinə edilən dəyişikliyə əsasən, elektron qaimə-faktura təqdim edilməli olduğu halda malların elektron qaimə-faktura verilmədən təqdim edilməsinə, topdansatış ticarət və istehsal obyektlərindən, habelə anbarlardan malların pərakəndə satış qaydasında rəsmiləşdirməklə təqdim edilməsinə ***(elektron ticarət qaydasında satılan malların sifariş edilərək pərakəndə satış ticarət obyektlərinə məxsus anbarlardan təqdim edilməsi istisna olmaqla)***, habelə malların əvvəlcədən sifariş edilmədən təqdim edilməsi üçün malların təsərrüfat subyektindən (obyektindən) nəqliyyat vasitələrinə yüklənməsi üçün təsərrüfatdaxili yerdəyişmə qaimə-fakturasının tərtib edilmədən verilməsinə görə – malları təqdim edən şəxsə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə təqdim edilmiş malların satış qiymətinin 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

## Vergi hüquqpozuntuları və sanksiyalar

**Kredit təşkilatlarına, bank əməliyyatlarını aparan şəxslərə və maliyyə institutlarına tətbiq edilən maliyyə sanksiyaları ilə bağlı dəqiqləşmə.**

Artıq Vergi Məcəlləsinin 60.1-ci maddəsi ilə yalnız kredit təşkilatlarına deyil, eyni zamanda bank əməliyyatlarını aparan şəxslərə (poçt rabitəsinin milli operatoru) maliyyə sanksiyaları tətbiq edilməyə başlanılacaqdır.

Belə ki, Vergi Məcəlləsinə edilən son dəyişikliklərdən sonra kredit təşkilatları və bank əməliyyatlarını aparan şəxslərə (poçt rabitəsinin milli operatoru) vergi ödəyicisinə hesablar açdıqda həmin hesabların vergi orqanında qeydiyyata alınması üçün elektron məlumatın həmin Məcəllənin 35.1-ci maddəsinə uyğun olaraq vergi orqanına təqdim edilməməsinə görə - hər açılmış hesab üzrə 400 manat məbləğində, habelə vergi orqanında qeydiyyata alınmamış hesablar üzrə və ya həmin Məcəllənin 35.2-ci maddəsində müəyyənləşdirilən qeydiyyat bildirişi daxil olanadək məxaric əməliyyatları (dövlət büdcəsinə və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə büdcədənkənar fondlara məxaric əməliyyatları istisna olmaqla) aparıldığı halda aparılmış məxaric əməliyyatının 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir.

Vergi Məcəlləsinin 60.3.3-cü maddəsinə edilmiş dəyişikliyə əsasən, Məcəllənin 76-1-ci maddəsinin tələblərini icra etməməyə görə – hesaba mədaxil olunmuş vəsaitin ümumi məbləğinin 30 faizi miqdarında, bu hesablar üzrə əməliyyat aparılmadıqda isə, hər belə hesab üçün 400 manat məbləğində maliyyə sanksiyası tətbiq olunacaqdır.

Belə ki, maliyyə institutları qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi hədlərdə və qaydada Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə təqdim etməlidirlər. Dəyişikliyə əsasən, artıq hesaba mədaxil olunmuş vəsait barədə məlumat verilmədiyi halda maliyyə sanksiyası tətbiq olunacaqdır.

Fiziki şəxslərin gəlir vergisi ilə bağlı azadolmalar

**Fiziki şəxslərin gəlir vergisi ilə bağlı azadolmalar**

- Vergi Məcəlləsinin 102.1.7-ci maddəsinə edilmiş əlavəyə əsasən, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsində göstərilən malların vergi ödəyicilərinə təqdim edilməsindən (kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən istehsal olunan kənd təsərrüfatı məhsullarının təqdim edilməsi istisna olmaqla) əldə olunan gəlir, gəlir vergisindən azad olan gəlirlərə aid olmayacaqdır.
 Xatırladaq ki, sözügedən Qanunun 3.5-ci maddəsinə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçılarından kənd təsərrüfatı məhsulları; əlvan və qara metal qırıntıları; utilizasiya və digər məqsədlər üçün kağız, şüşə və plastik məmulatları; utilizasiya məqsədləri üçün işlənmiş şinlər; xam dəri vergi ödəyiciləri tərəfindən vergi ödəyicisi olmayan fiziki şəxslərdən nağd qaydada satın alına bilər.

- 102.1.11-ci bəndə edilmiş dəyişikliyə əsasən, bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalından ***(o cümlədən, sənaye üsulu ilə) alınan gəlirlər, o cümlədən kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan fiziki şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar (o cümlədən, sənaye üsulu ilə) alınan gəlirlər*** gəlir vergisindən azad olacaqlar;

- yeni əlavə edilmiş 102.1.11-1-ci maddəyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan fiziki şəxslərin dividend gəlirləri 2023-cü il yanvarın 1-dən 1 il müddətinə gəlir vergisindən azad olacaqlar;

- yeni əlavə edilmiş 102.1-1- ci maddəyə əsasən, şəhid ailəsi statusu verilmiş şəxslərin valideynlərinin, dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 800 manat məbləğində azaldılır;

## Fiziki şəxslərin gəlir vergisi ilə bağlı azadolmalar

- 102.1.15-ci maddəsinin məzmununa edilmiş dəyişikliklərə əsasən, yarışlarda və müsabiqələrdə əşya şəklində alınan mükafatların tam dəyəri; Beynəlxalq yarışlarda (***idman yarışları istisna olmaqla***) və müsabiqələrdə pul şəklində alınan mükafatların dəyəri 4,000 manatadək, respublika, ***regional***, şəhər və rayon yarışlarında (***idman yarışları istisna olmaqla***) və müsabiqələrində isə 200 manatadək; *Beynəlxalq, ölkələrarası idman yarışları ilə bağlı həmin yarışların təşkilatçıları tərəfindən verilən mükafatların tam dəyəri, habelə ölkədaxili (respublika, regional, şəhər və rayon səviyyəli) idman yarışları ilə bağlı respublika idman federasiyaları (assosiasiyaları) və idman klubları tərəfindən pul şəklində verilən mükafatların dəyəri 50,000 manatadək* gəlir vergisindən azad olacaqlar;

- 102.1.22-2-ci maddənin məzmununa edilmiş əlavəyə əsasən, 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində ***Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən*** kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olacaqlar;

- yeni əlavə edilmiş 102.1.37-ci maddəyə əsasən, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən fərdi sahibkarların həmin fəaliyyətdən əldə etdiyi gəlirin 50 faizi *müvafiq siyahının təsdiq edildiyi ildən e*tibarən 7 il müddətinə gəlir vergisindən azad olacaqdır;

- yeni əlavə edilmiş 102.1.38-ci maddəyə əsasən, “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə uyğun olaraq əhali qrupuna daxil olan aktiv istehlakçının bərpa olunan enerji mənbələri hesabına 150 kVt (150 kVt daxil olmaqla) güc həddinədək istehsal etdiyi elektrik enerjisinin elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə olunan gəlir vergisindən azad olacaqdır;

- 102.4.2-ci maddənin məzmununa edilmiş dəyişikliyə əsasən, 1990-cı il yanvarın 20-də SSRİ qoşunlarının müdaxiləsi nəticəsində, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi zamanı həlak olmuş şəxslərin ***arvadları (ərləri) və övladları*** gəlir vergisindən azad olacaqlar.

# Hüquqi şəxslərin mənfəət vergisi ilə bağlı azadolmalar

**Hüquq şəxslərin mənfəət vergisi ilə bağlı azadolmalar**

Yeni əlavə edilən 106.1.14-1-ci maddəyə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) hüquqi şəxslərin bu fəaliyyət üzrə satışdankənar gəlirləri, kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar hüquqi şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına verilən subsidiyalar, habelə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən, sənaye üsulu ilə) rezident hüquqi şəxslərin iştirakçıları olan hüquqi şəxslərin bu sahə üzrə dividend gəlirləri 2023-cü il yanvarın 1-dən 1 il müddətinə vergidən azaddır;106.1.18-ci maddənin məzmununda edilmiş dəyişikliyə əsasən, dövlətin adından yaradılan publik hüquqi şəxslər istisna olmaqla, vergi ödəyicisinin hesabat ilinin mənfəətinin 10 faizindən çox olmayan hissəsinin Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən meyarlara cavab verən elm, təhsil, səhiyyə, idman və mədəniyyət sahəsində fəaliyyət göstərən müəssisə, idarə və təşkilatlara köçürülən hissəsi – 1 yanvar 2019-cu il tarixindən 10 il müddətinə, ***siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən*** ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara köçürülən hissəsi üzrə isə 1 yanvar 2021-ci il tarixindən 8 il müddətinə vergidən azaddır. Bu maddənin müddəaları yalnız nağdsız qaydada ödənilən xərclərə münasibətdə tətbiq edilir.

- yeni əlavə edilən 106.1.30-cu maddəyə əsasən, vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına edilən ödənişlər vergidən azaddır;

- yeni əlavə edilən 106.1.31-ci maddəyə əsasən, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalını həyata keçirən hüquqi şəxslərin həmin fəaliyyətdən əldə etdikləri mənfəətin 50 faizi müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə vergidən azaddır.

Əlavə dəyər vergisi

**Əlavə dəyər vergisindən azadolmalar**

Belə ki, artıq yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə vermə sahəsində fəaliyyət göstərən Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən yaşayış sahələrinin kirayəçilərə təqdim edilməsində (164.1.10-1), “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin təsdiqedici sənədi əsasında “Azərbaycan İstilik Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyətinin yenidən qurulması layihəsi çərçivəsində avadanlıqların və ehtiyat hissələrinin idxalında (1 yanvar 2023-cü il tarixindən 3 il müddətinə) (164.1.61), vəkillər və vəkil qurumları tərəfindən order markasının əldə edilməsi ilə bağlı Azərbaycan Respublikasının Vəkillər Kollegiyasına edilən ödənişlərdə (164.1.59), siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş əsas vəsaitlərin idxalında (164.1.60) ƏDV tutulmayacaqdır.

Göstərilən maddədə əks olunan bəzi azadolmaların müddətləri uzadılmışdır. Məsələn, icbari tibbi sığorta fondunun vəsaiti hesabına tibbi xidmətlərin göstərilməsi 1 yanvar 2024-cü il tarixinədək ƏDV-dən azad olacaqdır. Bununla yanaşı, ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası və sağlamlaşdırma tədbirləri çərçivəsində Azərbaycan Respublikasının Prezidentinin müəyyən etdiyi qaydada qeyri-işlək (toksik) aktivlərin təqdim edilməsi, habelə bankın iflas proseduru çərçivəsində aktivlərinin təqdim edilməsi 1 yanvar 2026-ci il tarixinədək ƏDV-dən azad olacaqdır. İri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində avadanlıqların və materialların idxalı 1 yanvar 2025-ci il tarixinədək ƏDV-dən azad olacaqdır. İstehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı 1 yanvar 2026-ci il tarixinədək ƏDV-dən azad olacaqdır.

# Əlavə dəyər vergisi

**Müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulması zamanı ƏDV sıfır (0) dərəcəsi ilə tutulacaqdır.**

Vergi Məcəlləsinin 164.1.5-ci maddəsinə edilən dəyişiklik nəticəsində müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitlərin qoyulması ƏDV-dən azad edilən hallara şamil edilmir. Vergi Məcəlləsinin 165.1-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulması (əsas vəsaitin pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda) ƏDV sıfır (0) dərəcəsi ilə vergiyə cəlb ediləcəkdir.

Əlavə dəyər vergisi

**Geri qaytarılan ƏDV məbləği**

Məcəllənin 165.5-ci maddəsinin məzmumununa edilmiş dəyişikliklərə əsasən, fiziki şəxs olan istehlakçılar tərəfindən Azərbaycan Respublikasının ərazisində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), habelə tibb müəssisələri ***və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər*** tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-dən qaytarılan məbləğ nağdsız ödənilmiş ƏDV-nin ***17,5*** faizini, nağd qaydada ödənilmiş ƏDV-nin **5** faizini təşkil edəcəkdir.

© Baker Tilly 

**ƏDV tutulan əməliyyatların aparıldığı vaxt**

Vergi Məcəlləsinin 166.3-ci maddəsinə edilən dəyişikliyə əsasən, Məcəllənin 159.6-cı maddəsi tətbiq edildikdə, vergi tutulan əməliyyatın (o cümlədən malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclar üzrə) vaxtı ləğvetmənin qüvvəyə minməsindən bilavasitə əvvəlki vaxt (gün) sayılır. Vergi Məcəlləsinin 159.6-cı maddəsinə əsasən, vergi ödəyicisinin qeydiyyatı ləğv edilirsə, ləğvetmə vaxtı onun sahibliyində qalan mallar həmin vaxt və vergi tutulan əməliyyat çərçivəsində təqdim edilən mallar kimi qiymətləndirilir. Bu zaman malların (işlərin, xidmətlərin) təqdim edilməsi üzrə yaranan debitor borclara da eyni qayda tətbiq olunur.

Əlavə dəyər vergisi

**Qeyri-rezidentlərin ƏDV-yə cəlb edilməsini istisna edən yeni müddəa**

Vergi Məcəlləsinin 169-cu maddəsinə əlavə olunan 8-ci bəndə əsasən, həmin Məcəllənin 33.8-1-ci maddəsində nəzərdə tutulan qaydada uçota alınan qeyri-rezident tərəfindən bu fəslin məqsədləri üçün işlərin və xidmətlərin göstərilməsi bu maddəyə uyğun olaraq vergiyə cəlb edilmir və bu əməliyyatlar üzrə yaranan vergi öhdəliyi qeyri-rezident şəxs tərəfindən həmin Məcəlləyə uyğun olaraq hesablanıb ödənilir. Vergi Məcəlləsinə əlavə olunan 33.8-1-ci maddəyə əsasən, rezidentlərə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsindən gəlir əldə edən internet informasiya ehtiyatı vasitəsilə elektron ticarəti həyata keçirən qeyri-rezidentin (bu Məcəllənin 19-cu maddəsi ilə nəzərdə tutulan daimi nümayəndəliklər istisna olmaqla) elektron qaydada vergi uçotuna alınması, yenidən uçota alınması və uçotdan çıxarılması qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

© Baker Tilly

Əlavə dəyər vergisi

**ƏDV əvəzləşdirilməsi ilə bağlı dəyişiklik**

Vergi Məcəlləsinin 175.1.3-cü maddəsinə edilən son dəyişikliyə əsasən, vergi ödəyicisinə verilmiş elektron *qaimə-faktura* üzrə iki və ya daha çox ödəmə aparılarsa, hər ödəmə ödəniş miqdarında ayrıca əməliyyat üçün həyata keçirilmiş sayılır. Vergi ödəyicisinə verilmiş elektron *qaimə-faktura* üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilən gündən ***bir iş günü müddətində,*** ƏDV-nin məbləği bu Məcəllə ilə və Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş qaydada ödənilməlidir. Belə ki, dəyişiklikdən sonra ƏDV-nin məbləği əsas məbləğin ödənildiyi gündən bir iş günü müddətində ödənilməsi qanun pozuntusu hesab edilmir.

Vergi Məcəlləsinin 175.6-cı maddəsinə edilən dəyişikliyə əsasən***, həmin Məcəllənin 160.4-cü maddəsində göstərilən hal istisna olmaqla,*** ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatlar aparan şəxslər tərəfindən mallar (işlər, xidmətlər) alınarkən bu maddə ilə müəyyən edilmiş qaydada ödənilmiş ƏDV məbləği əvəzləşdirilmir. Dövlət büdcəsindən ayrılan vəsaitlər (subsidiya və geri qaytarılmalı vəsaitlər istisna olmaqla) hesabına mallar (işlər, xidmətlər) alınarkən, ödənilmiş ƏDV-nin məbləği əvəzləşdirilmir. Bu Məcəllənin 160.4-cü maddəsinə əsasən, hüquqi və fiziki şəxslər tərəfindən dövlət orqanlarına və ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara əvəzsiz olaraq daşınar və daşınmaz əmlakların, qeyri-maddi aktivlərin, habelə əmlak kompleksi şəklində müəssisələrin verilməsi vergiyə cəlb edilməyən əməliyyatlar hesab olunur.

Əlavə dəyər vergisi

**Vergi Məcəlləsinin bəyannamələrin verilməsi və ƏDV-nin ödənilməsinə dair dəyişiklik**

Vergi Məcəlləsinin 177.4-cü maddəsinə edilən dəyişikliyə əsasən, vergi tutulan idxal üzrə ƏDV bu Məcəlləyə və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanır və alınır ***və 1 bank günü ərzində dövlət büdcəsinə ödənilir.***

Əmlak vergisi

**Əmlak vergisi**

**Əmlak vergisindən azadolmalar**

Vergitutma məqsədləri üçün müəssisənin və fərdi sahibkarın əmlakının dəyəri həmin müəssisənin mülkiyyətində (balansında) olan və siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilən mülki müdafiə təyinatlı əmlaklar dəyərində azaldılacaqdır
(Maddə 199.4.1-1).

Yeni əlavə edilmiş 199.17-ci maddəyə əsasən, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə əmlak vergisini ödəməkdən azaddırlar.

Kredit təşkilatlarına münasibətdə isə 199.18-ci maddəyə əsasən, onlar məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müflis elan olunduğu halda kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi aydan etibarən əmlak vergisini ödəməkdən azad olacaqlar.

O cümlədən, yeni əlavə edilən 199.19-cu maddəyə əsasən, Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin dövlət proqramlarına uyğun olaraq 1 yanvar 2023-cü il tarixindən sonra özəlləşdirilməsi barədə qərar qəbul edilən dövlətə məxsus hüquqi şəxslər özəlləşdirilməsi barədə qərarın qəbul edildiyi ildən etibarən özəlləşdirilmə prosesi müddətində, lakin 3 ildən çox olmayaraq, əmlak vergisini ödəməkdən azaddırlar.

## Əmlak vergisi

**Əmlak vergisinin hesablanması və ödənilməsi zamanı sığortalanma tarixinə əmlakın bazar dəyəri nəzərə alınacaqdır.**

201.1.1-ci maddənin məzmununda edilmiş dəyişikliyə əsasən, müəssisənin və fərdi sahibkarın əsas vəsaitləri qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda əmlak vergisi bu Məcəllənin 14-cü maddəsinə əsasən ***sığortalanma tarixinə əmlakın bazar dəyərinə uyğun olaraq*** müəyyən edilmiş dəyərə əmlak vergisinin dərəcəsi tətbiq edilməklə hesablanacaq.

**Müflis elan olunan kredit təşkilatlarının əmlakının vergi tutulan dəyərinin müəyyən edilməsi**

Dəyişikliyə əsasən kredit təşkilatları hesabat ili ərzində müflis elan olunduqda, onun əmlakının ilin əvvəlinə və müflis elan olunduğu tarixə qalıq dəyəri toplanaraq 24-ə bölünür və ilin əvvəlindən kredit təşkilatının müflis elan olunduğu aya qədər olan ayların sayına vurulur.

# Torpaq vergisi

**Torpaq vergisi**

**Torpaq vergisindən azadolmalar**

- 207.9-cu maddəyə əsasən, kredit təşkilatları məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən müflis elan olunduğu halda kredit təşkilatının müflis elan olunması ilə bağlı məhkəmə qərarının qüvvəyə mindiyi ildən etibarən torpaq vergisini ödəməkdən azaddırlar;
- 207.10-cu maddəyə əsasən, siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş idxal mallarını yerli istehsal (emal) malları ilə əvəz edəcək qida (ərzaq) məhsullarının istehsalı ilə məşğul olan hüquqi və fiziki şəxslər həmin fəaliyyət prosesində istifadə olunan torpaqlara görə müvafiq siyahının təsdiq edildiyi ildən etibarən 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.
- 207.11-ci maddəyə əsasən, Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin dövlət proqramlarına uyğun olaraq 1 yanvar 2023-cü il tarixindən sonra özəlləşdirilməsi barədə qərar qəbul edilən dövlətə məxsus hüquqi şəxslər özəlləşdirilməsi barədə qərarın qəbul edildiyi ildən etibarən özəlləşdirilmə prosesi müddətində, lakin 3 ildən çox olmayaraq, torpaq vergisini ödəməkdən azaddırlar.

Sadələşdirilmiş vergi

**Sadələşdirilmiş vergi**

218.5.10-cu maddənin məzmununda edilmiş dəyişikliyə əsasən, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) görülən işlərdən və göstərilən xidmətlərdən başqa, ***işlərin görülməsini*** və xidmətlərin göstərilməsini həyata keçirən şəxslərin (bu Məcəllənin 218.4.1-ci və 220.10-cu maddələrində nəzərdə tutulan şəxslər tərəfindən ***işlərin görülməsi*** və xidmətlərin göstərilməsi istisna olmaqla) sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ yoxdur.

Əvvəlki redaksiyada yalnız xidmətlərin göstərilməsini həyata keçirən şəxslərin bu hüququ istisna edilirdi.

- 218.6.2-ci maddənin məzmununa edilmiş dəyişikliklərə əsasən, bu Məcəllənin 218.5.10-cu maddəsinin müddəalarından asılı olmayaraq, vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən və görülən işlərdən başqa, xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən şəxslər tərəfindən əhaliyə xidmətlə ***(işlə)*** yanaşı, hüquqi şəxslərə və vergi ödəyicisi kimi vergi orqanında uçotda olan fiziki şəxslərə xidmətlərin göstərilməsi və işlərin görülməsi həyata keçirilirsə, rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların (***qeyri-rezident hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident fiziki şəxslərə hesab-faktura (invoys) əsasında göstərilən xidmətlərin və görülən işlərin dəyəri də daxil olmaqla***) həcmi xidmətlərin göstərilməsi və ***işlərin görülməsi*** üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcminin 30 faizindən çox olmadıqda, bu Məcəllənin 218.6-cı maddəsinin müddəaları malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ibarət qarışıq əməliyyatlar aparılan hallara da tətbiq edilir.

- yeni əlavə edilən 218.7-ci maddəyə əsasən, bu Məcəllənin 218.6.1-ci və 218.6.2-ci maddələrində göstərilən şərtlər ödənilmədikdə, sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən sonrakı ayın 1-dən ləğv edilir.

İnformasiya texnologiyaları sahəsində vergi güzəştləri

**İnformasiya texnologiyaları sahəsində vergi güzəştləri**

**Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərə tətbiq olunan güzəştlər.**

Dəyişikliyə əsasən texnologiyalar parkının qeydiyyat şəhadətnaməsini almış və parkdan kənarda sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər də texnologiyalar parkının rezidenti hesab olunacaqdır.

Texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyəti ilə məşğul olan şəxslər Vergi Məcəlləsində texnologiyalar parkının rezidentlərinə xas olan aşağıdakı vergi azadolma və güzəştlərindən qeydiyyat şəhadətnaməsinin alındığı hesabat ilindən başlayaraq 10 il müddətinə yararlana biləcəklər:

- Fiziki və hüquqi şəxslər həmin fəaliyyətdən (o cümlədən həmin fəaliyyətin həyata keçirilməsindən irəli gələrək alıcılara göstərilən təkmilləşmə, texniki dəstək və təlim xidmətləri) əldə etdikləri gəlirlərdən müvafiq olaraq gəlir və mənfəət vergisindən;
- Fiziki və hüquqi şəxslər əmlak və torpaq vergisindən;
- Hüquqi şəxslər tərəfindən ödənilən dividendə görə ödəmə mənbəyində tutulan vergidən.

Bunlardan başqa, sözügedən fəaliyyət ilə məşğul olan şəxslər texnologiyalar parkının rezidenti olduqda onların muzdlu işçilərinin əldə etdiyi gəlirlərə görə gəlir vergisinin aşağıdakı qaydada hesablanması nəzərdə tutulur:

- 2023-2025-ci illəri əhatə edən dövrdə: aylıq gəlirin 8,000 AZN-dək hissəsi 0 faiz, 8,000 AZN-dən çox olan məbləğin isə 5 faizi;
- 2026-2032-ci illəri əhatə edən dövrdə: aylıq gəlirin 5 faizi.

## İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətlərini tənzimləyən yeni fəsil.

**İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətlərini tənzimləyən yeni fəsil.**

Vergi Məcəlləsinə yeni daxil edilən XIX fəsil, 226-229-cu maddələri əhatə etməklə, işğaldan azad edilmiş ərazilərdə vergitutma ilə bağlı ümumi müddəaları, azadolmaları, ƏDV-nin geri qaytarılması və hesabatların verilməsi ilə bağlı qaydaları tənzimləyir. İşğaldan azad edilmiş ərazilərdə vergitutma ilə bağlı bütün digər məsələlər Vergi Məcəlləsinin I - XVII fəsillərinə uyğun olaraq tənzimlənəcəkdir.

Maddə 226. Vergitutma ilə bağlı ümumi müddəalar

226.1. Bu fəsil işğaldan azad edilmiş ərazilərdə həmin ərazinin rezidentlərinə verilən vergi azadolmaları, həmin azadolmaların tətbiq edildiyi subyektlərin və əməliyyatların dairəsi ilə bağlı məsələləri tənzimləyir. İşğaldan azad edilmiş ərazilərdə vergitutma ilə bağlı bütün digər məsələlər bu Məcəllənin I - XVII fəsillərinə uyğun olaraq tənzimlənir.

226.2. Bu fəslin məqsədləri üçün işğaldan azad edilmiş ərazinin rezidenti dedikdə, işğaldan azad edilmiş ərazilərdə vergi uçotuna alınan və bilavasitə həmin ərazilərdə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər başa düşülür.

226.3. Bu fəsildə müəyyən edilən vergi azadolmaları aşağıdakı fəaliyyət növləri və əməliyyatlara şamil edilmir:

226.3.1. maliyyə xidmətlərinin göstərilməsi sahəsində fəaliyyət;

226.3.2. avtonəqliyyat vasitələri ilə yük daşıma xidmətləri;

226.3.3. dövlət büdcəsinin vəsaitləri hesabına podratçı (işğaldan azad edilmiş ərazi daxilində istehsal fəaliyyətini həyata keçirən rezident podratçılar istisna olmaqla) tərəfindən malların (işlərin və xidmətlərin) təqdim edilməsi.

İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətlərini tənzimləyən yeni fəsil.

Maddə 227. Azadolmalar

227.1. İşğaldan azad edilmiş ərazinin rezidentləri 1 yanvar 2023-cü il tarixindən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar.

227.2. ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş istehsal fəaliyyəti sahələri üzrə xammal və materialların idxalı 1 yanvar 2023-cü il tarixindən etibarən 10 il müddətində ƏDV-dən azaddır. Bu maddənin müddəaları Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş qaydada verilmiş təsdiqedici sənəd əsasında tətbiq edilir.

227.3. İşğaldan azad edilmiş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirləri 1 yanvar 2023-cü il tarixindən etibarən 10 il müddətində vergidən azaddır.

227.4. Bu maddədə nəzərdə tutulan vergi azadolmaları aşağıdakı şərtlər daxilində tətbiq edilir:

227.4.1. istehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə bu fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir. Bu maddədə nəzərdə tutulan vergi azadolması istehsal, o cümlədən emal və ya hasil edilərək işğaldan azad edilmiş ərazi daxilində və ya həmin ərazidən kənara təqdim edilən, habelə Azərbaycan Respublikasının ərazisindən ixrac edilən mallara görə əldə olunan gəlirlərə şamil edilir.

227.4.2. topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir.

Həmin şəxslər malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazidən kənarda fəaliyyət göstərən şəxslərə təqdim etdikləri, o cümlədən Azərbaycan Respublikası ərazisindən ixrac etdikləri halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir.

İşğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətlərini tənzimləyən yeni fəsil.

227.4.3. turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir.

227.4.4. bu Məcəllənin 227.4.1 - 227.4.3-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda da (Azərbaycan Respublikası ərazisi daxilində) eyni növ fəaliyyəti həyata keçirdiyi halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir.

227.4.5. bu Məcəllənin 227.4.1 - 227.4.3-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənarda digər fəaliyyət növü həyata keçirdiyi halda işğaldan azad edilmiş ərazidə göstərilən fəaliyyətlə həmin ərazilərdən kənarda göstərilən digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

227.5. Bu maddədə nəzərdə tutulan vergi azadolmaları işğaldan azad edilmiş ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil edilir.

Maddə 228. ƏDV-nin geri qaytarılması

Fiziki şəxs olan istehlakçılar tərəfindən işğaldan azad edilmiş ərazilər daxilində yerləşmə vasitələri hesab edilən mehmanxanalar (hotellər) tərəfindən göstərilən gecələmə və qalma xidmətlərinə (digər əlavə xidmətlər istisna olmaqla) görə nağdsız qaydada ödənilən ƏDV-nin 30 faizi, nağd qaydada ödənilən ƏDV-nin 5 faizi geri qaytarılır. Bu maddə üzrə ƏDV-nin qaytarılması qaydası və şərtləri bu Məcəllənin 165.5-ci maddəsinə uyğun olaraq müəyyən edilir.

Maddə 229. Hesabatların verilməsi

İşğaldan azad edilmiş ərazinin rezidenti həmin ərazidəki fəaliyyəti ilə bağlı vergi hesabatlarını bu Məcəllədə nəzərdə tutulan qaydada və müddətlərdə vergi orqanına təqdim edir.

## Digər dəyişikliklər

**Digər dəyişikliklər**

**Qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəəti həmin qeyri-rezidentə köçürüldükdə (verildikdə) bu məbləğ Azərbaycan mənbəyindən gəlirlərə aid edilməyəcəkdir.**

Vergi Məcəlləsinin 13.2.16.14-1-ci maddəsinə yeni 10-cu bənd əlavə edilmişdir. Dəyişikliyə əsasən, qeyri-rezidentin daimi nümayəndəliyinin xalis mənfəəti həmin qeyri-rezidentə köçürüldükdə, belə köçürmə güzəştli vergi tutulan ölkələrə və ya ərazilərə münasibətdə vergitutma məqsədləri üçün Azərbaycan mənbəyindən gəlirlərə aid edilmir.

**Müflis elan olunmuş kredit təşkilatlarının vergi öhdəliklərinə faizlərin hesablanması dayandırıldı.**

Vergi Məcəlləsinə yeni əlavə edilən 59.2-1-ci maddəyə əsasən, artıq Vergi Məcəlləsinin 90.3-cü maddəsinin müddəaları nəzərə alınmaqla, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müflis elan olunmuş kredit təşkilatlarının ödəmə müddəti ötmüş vergi öhdəliklərinə faizlərin hesablanması kredit təşkilatının müflis elan olunması haqqında məhkəmə qərarının qəbul edildiyi gündən etibarən dayandırılır.

**Vergi orqanlarının verginin, faizlərin və maliyyə sanksiyalarının hesablanmış (yenidən hesablanmış) məbləğini tutmaq hüququnun müddət axımının hesablanmasında dəyişikliklər**

Vergi Məcəlləsinin 85.4-cü maddəsi səyyar vergi yoxlaması zamanı əlavə hesablanmış verginin, faizlərin və maliyyə sanksiyalarının tutulması üçün müəyyən edilmiş 5 illik müddət səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə çıxarılmış qərarın tarixindən etibarən hesablanacaq.

Müvafiq olaraq, Məcəllənin 85.5-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra 3 il ərzində ondan düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini ***vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra (bu Məcəllənin 38.3.3-cü və 38.3.4-cü maddələrinə uyğun olaraq həyata keçirilən səyyar vergi yoxlamasının nəticələri üzrə çıxarılmış qərarın tarixindən etibarən)*** 5 il ərzində tələb etmək hüququna malikdir.

© Baker Tilly 

## Digər dəyişikliklər

**Vergi Məcəlləsində əmlakın siyahıya alınması ilə bağlı maddəyə dəyişiklik**

Məcəllənin 89.15-1-ci maddəsinə əsasən, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə müflis elan olunmuş kredit təşkilatlarının əmlakı siyahıya alınmayacaqdır.

**Təmirlə bağlı gəlirdən çıxarılan xərclərdə dəqiqləşmə**

- 115.6-1-ci maddənin məzmununa edilmiş əlavəyə əsasən, təqvim ilinin sonuna həmin maddə ilə müəyyən edilmiş qaydada hər bir kateqoriya üzrə kapitallaşdırılmış təmir xərclərinin məbləği 500 manatdan az olduqda, həmin məbləğ gəlirdən çıxılacaqdır.
  Qeyd edilməlidir ki, bu maddədə icarəyə götürülmüş və balansda əks etdirilməyən əsas vəsaitlərə çəkilən təmir xərclərinin kapitallaşdırılaraq amortizasiya olunması müəyyən edilir.

**Güzəştli vergi tutulan ölkələrdə və ya ərazilərdə əldə edilən gəlirlərlə bağlı 128-ci maddəyə dəyişikliklər edildi.**

- Rezidentin güzəştli vergi tutulan ölkədə və ya ərazidə gəlir əldə edən qeyri-rezidentin nizamnamə fondunun 20 faizindən çoxuna bilavasitə və ya dolayısı ilə sahib olduğu halda, yaxud öz növbəsində onun səsvermə hüququ verən səhmlərinin 20 faizindən çoxunun sahib olduğu halda, rezidentin həmin gəlirinin onun vergi tutulan gəlirinə daxil edilməsini nəzərdə tutan 128.1-ci maddə ləğv edildi.
- 128.2-ci maddənin məzmununda edilmiş dəyişikliklərə əsasən, güzəştli vergi tutulan xarici ölkə və ya ərazi dedikdə, aşağıdakı ölkələr və ya ərazilər başa düşüləcəkdir:
- 128.2.1. vergi dərəcəsi bu Məcəllədə müəyyən edilmiş dərəcənin 75 faizi və ya daha aşağı hissəsinə bərabər olan ölkələr və ya ərazilər və (və ya);
- 128.2.2. Azərbaycan Respublikası ilə beynəlxalq müqavilələr çərçivəsində müvafiq standartlara uyğun məlumat mübadiləsini aparmayan ölkələr və ya ərazilər və (və ya);
- 128.2.3. maliyyə məlumatını, yaxud əmlakın faktiki sahibi və ya gəlir (mənfəət) götürən barədə sirri qorumaq imkanı verilmiş şirkətlər haqqında məlumatın məxfiliyinə dair qanunun mövcud olduğu ölkələr və ya ərazilər.

## Digər dəyişikliklər

**Vergi tutulan gəlir müəyyən edilərkən nəzərə alınmayan gəlir və ya zərərin dairəsi genişləndirildi.**

Belə ki, Vergi Məcəlləsinin 144.1.4-cü maddəsinə edilmiş dəyişikliyə əsasən, artıq hüquqi və fiziki şəxslər tərəfindən yalnız daşınmaz əmlak deyil, həmçinin daşınar əmlak və qeyri-maddi aktivlər dövlət orqanlarına (qurumlarına), ***eləcə də siyahısı Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən ictimai və sosial məqsədlər üçün yaradılmış fondlara*** əvəzsiz olaraq verildikdə onlar vergi tutulan gəlirlər müəyyən edilərkən nəzərə alınmayacaqdır. Eyni zamanda, Vergi Məcəlləsinin 160-cı maddəsinin məzmununda buna uyğun olaraq dəyişiklik aparılmış və adları qeyd olunan əmlakların əvəzsiz olaraq verilməsinin vergi tutulan əməliyyat sayılmadığı qeyd olunmuşdur.

**Bir sıra tütün məmulatlarının aksiz dərəcələri azaldılır.**

Vergi Məcəlləsinin 190.3.14-cü maddəsində edilmiş dəyişikliyə əsasən, qəlyan üçün tütünlər və tütün əvəzləyiciləri, istehsal məqsədli tütünlər istisna olmaqla digər çəkməli tütünlər, “homogenləşdirilmiş” və ya “bərpa edilmiş” tütünlər, çeynənilən və ya buruna çəkilən tütünlərin hər kiloqramına ***22*** manat aksiz dərəcəsi tətbiq ediləcəkdir. Əvvəllər bu məbləğ 30 manat təşkil edirdi.

**Diqqətiniz üçün təşəkkür edirik!**